# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ

| **PROQRAMIN TƏLİM NƏTİCƏLƏRİ** |
|---|
| **PTN 1**. Qloballaşan dünyada minilliklər ərzində formalaşmış və davranışa, intellektə hopmuş mədəni nailiyyətləri bədii nümunələr əsasında mənimsəməklə milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyur, azərbaycançılıq ideologiyasına sadiq, müstəqil və yaradıcı düşünür |
| **PTN 2.** Yaddaş məktəbindən təfəkkür məktəbinə, ənənəvi üsullardan yeni təlim üsul və formalarına keçidin zəruriliyini başa düşür |
| **PTN 3.** Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasına uyğun olaraq mənimsənilən bilik və bacarıqları çəkinmədən tətbiq edir |
| **PTN 4**. Konkret çərçivədə fəaliyyət və ya təhsil sahəsi ilə bağlı məsələlərin həlli üçün müvafiq informasiya, texnologiya və metodları seçə və onlardan istifadə edə bilir, həmçinin verilən informasiya əsasında gözlənilən nəticələri müəyyənləşdirir və qiymətləndirir |
| **PTN 5.** Ədəbi bilik və bacarıqların səviyyəsini müasir qiymətləndirmə mexanizmlərini tətbiq etməklə müəyyənləşdirir, özünüqiymətləndirmə və özünütəhsillə bağlı mənimsədiklərini tətbiq edir. |
| **PTN 6.** Bilik və təcrübələrin sintezini koqnitiv irəliləyişə yönəldir, nəzəri baxışları (perspektivləri), anlayış və nəzəriyyələri inteqrasiya etməklə problemi analamaq, izah etmək, yeni yanaşmalar və həlli yollarını yaratmaq üçün bacarıq və vərdişlərini inkişaf etdirir. |
| **PTN 7.** Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyat və səmərəli əmək fəaliyyəti üçün hazırlayır |
| **PTN 8**. Elmi-texnoloji tərəqqi, innovasiya və modernləşməyə uyğun olaraq əldə edilən bilik və bacarıqları praktik və səmərəli tətbiq edir, təhsilalanlarda tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir, müxtəlif təlim metodlarını, iş formalarını qarşılıqlı əlaqədə tətbiq edir. |
| **PTN 9.** Qazanılan bilik və bacarıqları həyatda tətbiq etmək yolu ilə mücərrəd düşünmə bacarığını inkişaf etdirilir, nəzəriyyədən təcrübəyə keçid təmin olunur, təhsilalanlarda ümumiləşdirmələr aparmaq qabiliyyəti, peşə səriştələri formalaşır**.** |
| **PTN 10.** Əsas ədəbi yazı növlərindən (annotasiya, araşdırma, uşaq ədəbi nəşrlərinə baxış) istifadə yolu ilə bədii əsərlərə münasibət bildirir, əsas ədəbi və tənqidi yazılı mətnlərə istinad etməklə sərbəst şəkildə müxtəlif növdə və janrlarda bədii nümunələrintəhlil edir |